Hürriyyət
Nəsr
SİZİN ÜÇÜN QƏZET
№12 (3210) 12 Aprel / 2022-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Brilyant qaşlı tək sırğa

Bizə təzə direktor təyin olundu. Adətən, təzə ilə maraqlanırlar, haranı bitirib, ixtisası nədi, hardandi və sairə və ilaxır. Bizim də kollektivimizdə maraqlananlar var. Öyrəndilər ki, İnşaat Uni-versitetini bitirib, inşaat materiallarının istehsalı texnologiyası ixtisası üzrə mühəndisdi. Qapı-pəncərə ixtisası sahəsimdə professordu, elmlər doktorudu, ziynət əşyaları həvəskarıdı. İlk gündən öz qaydalarını qoydu. O, gəlib-gedərkən koridorda kimsə görünməməlidi. İş vaxtı hər kəs otağında işiylə məşğul olmalıdı. Qəbuluna yalnız ayrılmış saatlarda düşmək olacaq, öncədən yazılmaq şərtilə.



*(Əvvəli ötən sayımızda)*

Yadıma öncəki illər düşdü. Universiteti fərqlənmə diplomuyla bitirmişdim. İnşaat materialları üzrə elmi-tədqiqat texnoloji institutuna işə düzəldim. Qəbula görə mənimlə şəxsən söh-bət etmiş direktorumuzla koridorda rastlaşanda dedi ki, hazırlaşım, aspiranturaya qəbul imtahanlarını verim, elmi işlə məşğul olum. İmtahanları ən yüksək balla verdim. Özü mənə mövzu təklif etdi, özü elmi rəhbərim oldu. Maraqlanırdı, məsləhətini əsirgəmirdi. Yazdığım məqalələri yoxlayırdı, lazımı düzəlişləri edirdi. Elm necə də gözəl sahə imiş. Sən fərqli nəsə yaratdığına əmin olanda pərvazlanırsan. Qurtarhaqurtarda direktorumuz dünyasını deyişdi. Yerinə gələn özünü guya rəsmi aparırdı, mənimlə maraqlanmadı. Özüm qəbuluna düşdüm. Olayı söylədim, yazdığım dissertasiyanı masaya qoydum. Dedi ki, işi həddən artıq çoxdu, bu məsələyə sonra, boş vaxt tapanda baxar. Boş vaxtı tapılmadı, dissertasiyamı da qaytarmadı, etiraf etdiyinə görə haraya atdığını unudubmuş. Xeyli gözlədim, qaytarmadı, həvəsim söndü.

Hə, nə qədər yadımdadı orasını deyim. Rəhbərimi direktorluğa işçilər seçmişdi, səsvermə yoluyla, ümimi toplantıda. Bunusa təyin etmişdilər. Bunun, necə deyərlər, Əlinin papağını Vəlinin başına, Vəlininkini isə Əlinin başına qoymağı vardı. Təyin edənin çaldığı havayla oynadığından kreslosunda rahat oturmuşdu. İllər ötdü, institutumuzdan birisi həmin dissertasiyanı müdafiə edib alim adı aldı. Sadəcə dissertasiyanın adı dəyişdirilmişdi, bir də giriş hissəsi. Hay-küy qaldırmaq istədim. Başa saldılar ki, dissertasiyanın elmi rəhbəri indiki direktor yazılıb, dünyasını dəyişmiş yox. Təyin olunan direktorun nələrə qadir olduğunu təsəvvürümdə belə canlandıra bilmərəm. Məni qanunla elə qovar ki, institut üzünə həsrət qalaram. O, arxalıdı, harasa şikayət etməklə onu cəzalandırmaq mümkün olmaz. Mumlamağım məsləhətdi. Artıq dissertasiya əldən getdi, işim əldən çıxmasın. Hə, işim həqiqətən üreyimcədi, itirmək istəmirəm. Burada yeniliklərimi də üzə çıxara bilirəm. Məsləhətli don gen olar, deyiblər. Mumlamağına mumladım. Könlümdən nə keçsə yaxşıdı? Axı yuxarıdakılar niyə səriştəsizlərə, savadsızlara, əyrilərə arxa dururlar? Kimsə gözəl deyibmiş, sən istedadlıya yardım elə, istedadsız sənsiz də irəli gedəcək. Nə isə.

Qayıdım təzə direktorumuza. O, dilini saxlamağı bacarsa da bizimkilərdən kimlərsə farağat durmurdu. Haralardansa, nə təhərsə, nələrisə öyrənə bilirdilər. Üzə çıxdı ki, okean sahilində, ekvatora yaxın ölkədə villası varmış. Yay istirahətini ailəsi ilə birgə orada keçirirmiş. Məzuniyyətdən qaralmış qayıtmışdı, ötən yaylarda olduğu kimi, deməli, villası cənubdadı.

Telekanalda göstərildi ki, bizim professorun iri həcmli, rəngli şəkillərlə dolu kitabı nüfuzlu nəşriyyatda nəfis halda nəşr edilib, böyük tirajla. Kitabın üz qabığı da göstərildi, baxımlı idi. Alıb oxudum. Bunu səviyyəli, səriştəli mütəxəssis yazmışdı. Hər şey yerli-yerində. Elmi ifadələr, texniki sözlər, üslub və dil gözəl, şəkilaltı yazılar müvafiq. Fikrimdən nə keçdi? Oxucu düşünəcək ki, kitabın müəllifi bu sahənin həqiqi professorlarındandı, beləsinə halal olsun.

Kitabın təqdimatının Akademiyanın böyük zalında keçirildiyi də telekanalda göstərildi. Sanballı adamlar kitab haqda bir-birindən müsbət, gözəl rəylər söylədi. Hətta nüfuzlu qəzetdə tanınmışların imzasıyla iri rezenziya dərc edildi. Başdanayağa tərifdən ibarət yazı zəngin, gözəl cümlələrlə qələmə alınmışdı. Fikrimdən keçən nə oldu? Bəlkə kitabı da elə bunlar yazıb.

Direktor eyvan üçün iri şüşəbənd və eyvana açılan qapıpəncərə tapşırdı. Bu dəfə də çərçivə ölçülərini verdi, qalan hər şeyi mənim zövqümə həvalə etdi.

Səs yayıldı ki, hansısa yüksək reytinqli beynəlxalq jurnalda professorun elmi məqaləsi dərc olunub, yeni qapı-pəncərə növlərinə, modellərinə aid. Məqalə əcnəbi dildə yazılıbmış, bizim professorun bilmədiyi dildə. Mənə maraqlı gəldi, əlimə düşsəydi oxuyardım, həmin dili bilirəm. İnstitutda söhbət hərləndi-fırlandı ki, o, axı belə elmi işlə məşğul olmur, tədqiqat aparmır. Məqalə hardan çıxdı ortaya?

Direktorla yanaşı, onun elmi işlər üzrə müavini və elmi katibimiz yaman əl-ayağa düşmüşdülər. Məlum oldu ki, yaxınlarda Akademiyaya seçkilər keçiriləcək, direktorumuz da iştirak edəcək, onun sənədlərini hazırlayırlar. Təqdimata bir qalaq sənəd lazım imiş. Bir yerə dörd nəfər sənəd veribmiş, seçkilərdə rəqabət güçlü olacaqmış. Bizimkilərin pıç-pıçını mühəndis mənə çatdırdı. Səviyyəli mütəxəssislərimizin fikrincə, Akademiyaya seçilmək direktorun başı girən kol deyil, sənədlərə sərf ediləcək kağız-kuğuz hayıfdı. İnstitutumuzdan filankəs seçilməyə layiqdi, elmi əsərləri, monoqrafiyaları yerli-yerində. Nə qədər yenilikləri istehsal edilir, uzun illərdi tikintidə tətbiqdədi. İstedadlı gənclərdən alimlər yetişdirib. Əyriliklə, pisliklə arası yoxdu. O, filankəsi sənəd verməkdən direktor necəsə kənarlaşdırıb. Kimlərsə deyir ki, direktorumuz elmdar olmasa da işgüzardı, küləklərin səbatsız əsdiyindən seçilə biləçəyinə güman yeri qala bilər.

Komissiyanın elan etdiyi nəticəyə görə professorumuz keçdi, birbaşa akademik. Pıçıltılar belə yön aldı ki, özünün işgüzarlığıyla yanaşı, arxasındakılar da güclüdü. Bizim də bəzi güclülərimiz sino gedir cındırı ipək yerinə qaldırmağa, güclərini bunda göstərməklə fərqlənirlər. İşçilərimizin bir qismi hədiyyələrlə onu təbrik etmək üçün kabinetin qapısı ağzında sıraya düzülmüşdü. Aralarındakı təkcə qadının əlində çiçək dəstəsi vardı.

Növbəti tapşırığı dilimdən qızıl əlli baş ustamız dinləyəndə sanki kükrədi:

- Bu nədi? Lap ağ eləyib. Bilmirəm institutun yeni işlərini, təkliflərini hazırlayım, yoxsa bunkuları. Bezmişəm. Yox, belə yaramaz. Mən qurtardım, yox deyirəm institut işi olmayanlara. Kimə istəyirsənsə ver, düzəltsin.

- Özünü ələ al, qovlanarsan, - birbaşa, açıq işarə vurdum.

- Bir də deyirəm, mən belə işlərlə qurtardım. Necə qovlaya bilər? İnstitutun ən çətin tapşırıqlarını yerinə yetirirəm, kənar işlərə baxmayaraq plan işlərini müddətində təhvil verirəm, hamıdan da gözəl.

- Başqaları qovulan kimi. Bəhanə tapmağa nə var? Bir-iki töhmət verib qovlayar, qanuna uyğun.

Onu başa saldıqda belə hirsi soyumadı:

- Mən ki, öhdəmə düşən işdən imtina eləmirəm, - usta özünə əminliklə sözünü bitirdi.

Hazırlanmış şeylər aparıldı. Direktor məni çağırıb işin keyfiyyətindən razı qalmadığını acıqlı tərzdə bildirdi. Səbəbini soruşdu. Demək məcburiyyətində qaldım. O, qətiyyətlə qərarını eşitdirdi. Xoşuma gəlmədiyindən dedim:

- Baş ustamız əslində zərgər dəqiqliyi ilə işləyəndi. Bəlkə ona dəyməyəsiz? Onu necəsə maraqlandırasız? Məsələn, mükafatlandırasız.

- Buraya direktor mən qoyulmuşaaam, - kinlə dedi, - onu atacağam çöləəə, başqalarına ibrət dərsi olsuuun!

İsrar etsəydim öz halımı təzədən əngəlləyərdim.

Direktor neylədi? Emalatxanamızın ştatındakı baş usta vezifəsini ixtisara saldı, qızıl əllər çölə atıldı. Baş usta haqsızlıqdan dəm vurdu, məhkəməyə şikayətləndiyini inamla dedi. Məhkəmə onu yerinə bərpa etmək qərarı çıxara bilmədi, ya da istəmədi. Hayıf ona da, emalatxanamıza da.

Ustalarımızın qayırdıqları direktoru qane etmirdi. Əlbəttə, qızıl əllər hara, adi əllər hara. Beynimdə peyda olan fikir hansı oldu? Daha tapşırmaz. Hamımız təngə gəlmişik. Di gəl ki, direktorun beynində peyda olan mənimkindən fərqli idi. Tapşırıqlarının ardı-arası kəsilmədi, keyfiyyəti yüksəltmək haqda tələbini də hər dəfə təkrarlayırdı.

Şəkilləri qarşıma qoyanda direktor qərəzli baxışlarını mənə zilləyib tapşırığını verdi. Diqqətlə dinlədim, anladığımı başımı tərpətməklə çatdırdım, sualarımı verdim. Problemi yumşaqcasına necə deyəcəyimə çətinlik çəkirdim, fəqət deməli idim. Yumşaq səslə, lakin üzüntülü tərzdə dedim ki, emalatxanamıza ayrılmış illik materialı işlətmişik. Maşın gəldi, malı boşaltdıq, ötən ildəki kimi. Tapşırığı yerinə yetirməkdə davam elədik.

Lift gözləyəndə tindəki pilləkənlə kimlərinsə yuxarıdan düşərkən asta danışığını eşitdim. Biri sörüşdu ki, niyə? Digəri cavab verdi ki, o istedadlıdı, irəli getsə əngəl törədər. Beləsini əl altında işlətmək düzgündü. Danışanlar aşağı mərtəbə pilləkəninə keçərkən ehtiyatla dönüb arxalarınca baxdım. Cavab vereni tanıya bildim, direktor idi. Hə, deməli, yetim haqqında söhbət gedirmiş. İnstitut əməkdaşımızın biri uşaq evində böyüdüyündən bəziləri öz aralarında ona zarafatca "yetim" deyirlər. İllərdi ki, dissertasiyanı öz əlləriylə işləyib, öz başıyla yazıb, səbirlə müdafiəyə buraxılacağını gözləyir. Təzə direktor gələndə güman olundu ki, bəlkə ona yol aça. Bu da belə çıxdı.

Günlərin birində direktorumuz işə gəlmədi. Kimsə haradansa öyrənib günorta çağı bizə çatdırdı ki, tikinti sənayesi nazirinin müavini təyin edilib. Hə, brilyant qaşlı tək sırğa taxan direktor yuxarıya aparıldı. Ürəyimdən keçən nə idi? Başımızdan izal oldu. Kaş təzə direktorumuzu kollektivimizin seçməsinə imkan veriləydi. Axı biz özümüzünküləri, sahə mütəxəssislərimizi yaxşı tanıyırıq.

Qapım açıldı, ikisi içəri girdi. Onlar direktorun, artıq keçmiş direktorun axırıncı tapşırığını, yeni ikiqat hazırlanmış üç dənə iri pəncərini aparmağa gəlmişdilər. Ona verilmiş Sırğalı adı yadıma düşdü. Hər dəfə Sırğalı yada düşərkən nədənsə tək sırğa taxan kişilər gözlərimin qabağına gəlir.

**Rəsul RƏXŞANLI**